***BÖYÜK İNSAN***

Dünyaya açılan
Pəncərə önündə,
Böyük insan nəşinə
İsinir izdiham.
İnsanlığın sabahından,
Sabahın aydınlığından,
Böyük sevgilərlə doğulan
Arzular, ümidlər qanadina
Güc verən böyük insan...
Rəngi solmuş bənizlərin,
Sevgisi soyuq dənizlərin
Ağrısına, acısına.
Məlhəm bir mələk yaşantısı...
Müdrikliyin yaranışından,
Nə bir çərçivə,
Nə bir məkan,
Nə tarix,
Nə zaman
Fərqinə varmadan
Oxunar, anılar
Böyük insan
Adından,
Andından
Çox-çox irəli ötər...
Heydər- öndər,
Böyük insan!

***Ədalət Əsgəroğlu***

***Günəşə qovuşmaq istəyirəm mən! – B.: Çinar- Çap, 2008. – S.56-57.***